# Şəmkirlilər igid oğullarını unutmurlar

**3 il öncə - 2022-ci il avqustun 3-də Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələrinin üzvləri 10 noyabr 2020-ci il tarixli Bəyanatın müddəalarını kobud surətdə pozaraq Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törətdilər.**



Terror-təxribat nəticəsində həlak olan Azərbaycan əsgərlərindən biri də Şəmkirin igid oğlu Anar Kazımov idi. Anar kimi oğulların sayəsində Azərbaycan Ordusunun düşmən terroruna qarşı keçirdiyi "Qisas" əməliyyatında erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdılmış, keçmiş Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsindəki hərbi hissəyə havadan zərbə endirilmişdir. Ordumuz Buzdux dağı və ətraf yüksəklikləri azad etməklə həm də hərbi-strateji əhəmiyyətli Ağdaban, Çayqovuşan, Vəngli, Narıştar kəndləri, habelə Sərsəng su anbarına vizual nəzarət etmək imkanı qazanmışdır. "Qisas" cavab əməliyyatı bir daha ermənilərə Azərbaycan Ordusunun gücünü göstərmişdir.

Şəhidlik zirvəsinə ucalan Azərbaycan Ordusunun əsgəri Anar Kazımovun xatirəsi həmyerliləri tərəfindən daim yad edilir. "Qisas" əməliyyatının 3-cü ildönümündə şəhidin boya-başa çatdığı Qaracəmirli kəndində anım tədbiri keçirilib. Şəmkir Rayon İcra Hakimiyyətinin əməkdaşları, şəhidin ailə üzvləri Anar Kazımovun məzarını ziyarət etmiş, önünə gül dəstələri düzərək xatirəsinə ehtiramlarını bildirmişlər. Mərasimdə şəhidin keçdiyi döyüş yolundan, göstərdiyi qəhrəmanlıqlardan danışılmışdır.

Rayon icra hakimiyyətinin əməkdaşları sonra şəhidin ailə üzvlərinə baş çəkmiş, onların qayğıları ilə maraqlanmışlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 8 avqust, №164.- S.7.